*Vətən müharibəsi qəhrəmanları*

# Şöhrəti dillərdə dolaşan igid

**Onunla mən bir neçə il fərqi ilə eyni məktəbdə oxumuşuq – Sumqayıtdakı 17 nömrəli tam orta məktəbdə. Bəlkə də haçansa üz-üzə gəlmişik, bilmirəm. Amma onun hərbi libasda Ali Baş Komandanla görüşdüyü anın əbədiləşdirildiyi şəkilə baxanda üz cizgiləri mənə çox tanış gəldi, ən azından, munis duyğular yaratdı. Sandım ki, Ramizi çoxdan tanıyıram.**





Tərcümeyi-halından sətirlər: Əslən Masallıdan olan Ramiz Cəfərov 10 dekabr 1974-cü ildə Donetsk vilayətinin Makeyevka şəhərində anadan olub. Sonradan Sumqayıta köçüblər. Bakıda Cəmşid Naxçıvanski adına hərbi liseyi və Ryazan Qvardiya Ali Hava-Desant Komandanlığı Məktəbini bitirib. Nümunəvi zabit kimi Vətənə xidmət edib. XTQ-də komandir müavini olub. Məlum Aprel döyüşlərində fərqlənib. Vətən müharibəsində əsl zabit dəyanəti göstərib. 2020-ci il noyabrın 6-da Şuşa yaxınlığında qəhrəmancasına həlak olub. Paytaxtdakı İkinci Şəhidlər xiyabanında (Hərbi Memorial Məzarlıqda) torpağa tapşırılıb.

"Zəfər Yürüşü"ndə Cəbrayıl, Füzuli, Xocavənd, Şuşa uğrunda şanlı savaşları ilə tarix yazan Ramiz Cəfərov mənsub olduğu xüsusi təyinatlılar arasında "Qara Qartal" ləqəbi ilə tanınırdı. Qıy vurub düşmən üzərinə şığıması silahdaşlarını ruhlandırır, qəfil hücumları ilə işğalçılara, sözün əsl mənasında, qan uddururdu. Ən böyük arzusu Şuşaya qalxmaq, Cıdır düzündə gəzmək, qoşa minarəli məscidi ziyarət etmək idi. Özü o yolu qət edə bilməsə də, Milli Ordumuza yol açan öncüllərdən oldu Ramiz.

Bakıdakı Azadlıq Meydanında ilk Qələbə paradı keçirilən gün şəhid polkovnik-leytenant Ramiz Cəfərovun 46 yaşı tamam olurdu. Bu ərəfədə – 1 gün öncə o, ölümündən sonra Vətən Müharibəsi Qəhrəmanı adına layiq görülmüşdü. Bir ay əvvəl isə Şuşaya Qələbə bayrağımız sancılmış, Müzəffər Ali Baş Komandanımız qürurla: "Əziz Şuşa, sən azadsan!" demişdi.

İnişil isə Zəfər Günü ərəfəsində "İRƏLİ" İctimai Birliyinin təşəbbüsü və Nizami Kino Mərkəzinin təşkilati dəstəyi ilə qəhrəman Ramiz Cəfərovun döyüş yolundan və şücaətindən bəhs edən "Ömür vəfa etsəydi" filminin nümayişi keçirilirdi. Hər kəs gözünü ekrandan çəkmədən Ramizin hünər hekayəsini hədsiz maraqla izləyirdi. Bir vaxtlar AzTV-də çiyin-çiyinə çalışdığım istedadlı rejissor Taleh İsmayılovun müəllifi olduğu filmdə onun silahdaşları ilə birgə düşmən texnikasını sıradan çıxarması və erməni quldurlarını amansızcasına məhv etməsi səhnələrinə həyəcansız baxmaq olmurdu... Budur, bədxah ermənilər ağır məğlubiyyətdən sonra sovet texnikası ilə "revanş" hücumuna keçirlər. Amma Ramizin döyüş yoldaşları ilə birgə qurduğu plan onlar üçün çox gözlənilməz olur. İki qumbara partlayışından sonra düşmən yaraqlıları silahlarını hansı tərəfə tuşlayacaqlarını müəyyənləşdirənədək Ramizgil bütöv bir quldur dəstəsini məhv edirlər...

Ölməz qəhrəmanın həyat yoldaşı Sitarə Vaqif qızı deyir:

– Ramiz düz 28 il hərbi geyimdə Vətənə qulluq etdi. Elə ona çox yaraşan həmin libasda da şəhadətə ucaldı. Mən bunu gözləyirdim, odur ki, acı xəbəri təmkinlə qarşıladım. Bilirdim ki, daim irəliyə can atan, kəşfiyyata hər gedəndə ölümü göz önünə alan Ramiz bir gün cənnət quşuna dönərək uçub gedə bilər. Elə də oldu. "Şəhidlər ölmür, ölməyənə ağlamazlar" – deyiblər. Mən də ağlamıram, Ramizin yadigarları olan 5 övladımı – Rəbiqə, Nigar, Nərgiz, Nurlana adında 4 qızımızı, Nurlan adında oğlumuzu böyüdə-böyüdə, həyatda inamla addımlamağa hazırlayaraq, şəhid ömür-gün dostuma dualar edir, onun adı ilə qürur duyuram.

***Əli NƏCƏFXANLI***
***XQ***